◆ Günel Dəmirəsənoğlu Qızı

## Qocalır İnsan

Nə altmış, nə yetmiş, nə yüz yaşında,
Həyatda bezəndə qocalır insan.
Dərdinin çəkisi ağırlaşanda,
Ürəyi üzəndə qocalır insan.

Papaq üzə keçir başdan böyüksə,
Üstə yağan dolu daşdan böyüksə,
Yaşadığı dərdlər yaşdan böyüksə,
Yaşayıb dözəndə qocalır insan.

Bir canı yananı, sevəni qalmır,
Nə yara, yoldaşa güvəni qalmır,
Bugündən sabaha gümanı qalmır,
Özündən küsəndə qocalır insan.

Anlayır, bir quru candı sərvəti,
Onun da nisyədir ömür müddəti,
Qəlbinə göməndə kor məhəbbəti,
Lal olub susanda, qocalır insan.

Xoşbəxtsə, illərin bir gündür sanki,
Bədbəxtsən, hər günün sürgündür sanki,
Ümidlə hər dilək mümkündü sanki,
Ümidi kəsəndə qocalır insan.